UĞUR Kaspi ÜÇ DİLDƏ QƏZET 27 İYUL ŞƏNBƏ 2024 9

LONDONDA TƏHSİL ALMAQ ÜÇÜN NORVEÇ TƏQAÜDÜNÜ QAZANAN ÜÇ TƏLƏBƏDƏN BİRİ OLAN AZƏRBAYCANLI XANIM

# ADI "QIZIL KİTAB"A YAZILAN MUSİQİÇİ

SÖHBƏTLƏŞDİ

AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

**Nigar Qəhrəmanova:** "Hər konsertimdə bir əsər belə olsa, Azərbaycan bəstəkarlarından ifa edirəm. Azərbaycan muğamının orqana necə yaraşdığını göstərmək şansım olub və norveçlilər də çox bəyəniblər".



Arzularının arxasınca gözüyumulu gedir. Onun ən böyük prinsipi geriyə baxmamaq, lazım olsa, arxadakı körpüləri yandıra bilmək və risk etməkdən qorxmamaqdır. Elə bu prinsipləri onu Norveçdə mədəniyyətlərarası körpülər quran sənətkar kimi tanıdır. Musiqi sahəsində dünya üçün yeni qarışım edir, şərq və qərb musiqilərinin vəhdətini yaradır. Azərbaycanda olduğu kimi, istedadı ilə əcnəbi ölkədə də seçilir. O qədər seçilir ki, Londonda təhsil almaq üçün Norveç təqaüdünü alan üç tələbədən biri olur.

Müsahibimiz Azərbaycan Prezidentinin və Norveçin İngar Doubloug fondunun təqaüdçüsü, milli və beynəlxalq müsabiqələr laureatı, hazırda Norveçdə orqan ifaçısı kimi fəaliyyət göstərən Nigar Qəhrəmanovadır.

### PİANO, XALQ MUSİQİSİ, VOKAL İFAÇILIĞI VƏ ORQAN

İki yaşından musiqi onun həyatındadır. Anasının laylası, bibisinin evdə ifa etdiyi xalq mahnıları istedadını inkişaf etdirib. 11 il Respublika İncəsənət Gimnaziyasında piano, klassik və xalq musiqisi, vokal ifaçılığı təhsili alır. Bu dövrdə pianodakı istedadı ilə ölkəyə səs salır. Müsabiqələr laureatı olur, Azərbaycan Dövlət Simfonik orkestrində ifa edir. Hətta adı Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı"na yazılır və Prezidentin xüsusi aylıq təqaüdünə layiq görülür. Pianoda qazandığı uğurlara baxmayaraq, təhsilini Bakı Musiqi Akademiyasında orqan ifaçılığı üzrə davam etdirir. İki il sonra musiqi təhsilini davam etdirmək üçün Norveçə gedir. Norveç Musiqi Akademiyasında orqan ifaçılığı üzrə həm bakalavr, həm magistratura təhsili alır. Bununla kifayətlənmir, Norveçdə Dobloug Fondu tərəfindən verilən tam təhsil təqaüdü ilə dünyanın bir nömrəli konservatoriyası olan Londonda Kral Musiqi Kollecində də öz sahəsi üzrə magistratura təhsili alır. Nigar 11 illik gimnaziya təhsilindən əlavə, 12 il orqan sahəsində ali təhsil alır, orqanist kimi bir çox milli və beynəlxalq müsabiqələrdə mükafatlar və təqaüdlər qazanır.



Hazırda Norveçdə Slagen kilsəsində kantor-orqanist vəzifəsində çalışır. Onu Norveçdə "CantORganistA" olaraq, yəni oxuyan (nəğməkar, müğənni) orqanist kimi tanıyırlar.

### ƏVƏZOLUNMAZ HİSS

● **Nigar xanım, iki yaşınızdan musiqi ilə məşğul olduğunuzu deyirsiniz. İki yaşlı uşağın musiqi marağı necə kəşf edilir?**

● Anam musiqiçi olmaq istəyib, lakin arzusunu reallaşdırmağa maddi vəziyyətləri imkan verməyib. Nə təhsili olub, nə də pianosu. O, mənə laylayı ürəkdən oxuyardı. Bibimin də gözəl səsi var idi, evdə xalq musiqiləri ifa edərdi. Evimizdə daimi olaraq musiqi sədaları eşidilirdi. Uşaq da nəyi görürsə, onu icra edir. Anam deyir: "Bir gün gördük ki, özündən mahnı düzəldib, ifa edirsən". O, bu istedadımı kəşf edəndə sevinib, çünki özünün edə bilmədiyini qızı reallaşdıra bilərdi. Bundan sonra əlimdən tutub mənimlə birlikdə bütün əziyyətlərə sinə gərib. Bu yolda hər zəhmətimi anam çəkib, hətta anamın istəyi ilə təhsilim üçün Sumqayıtdan Bakıya köçmüşük.

● **Bu zəhmət bəhrəsini verib və adınız gənc istedadların "Qızıl kitabı"na yazılıb. Həmin günü necə xatırlayırsınız?**

● 2007-ci il idi. Təbii ki, bu qərar açıqlananda çox sevindik. Bunun mənəvi tərəfi ilə yanaşı, maddi baxımdan da bizə çox dəstəyi var idi. Atam mühəndisdir və beş nəfərlik ailədə tək işləyən o idi. Yataqxanada bir otaqda qalırdıq. Bu mükafat anamın və mənim arzumun reallaşması demək idi. Həm də Prezidentin xüsusi təqaüdü ilə ailəmə maddi dəstək olacağıma görə sevinirdim. Bu, mənim üçün əvəzolunmaz hiss idi. Uşaq canımla əlimdən gələni edirdim.

### "ORQANLA SIFIRDAN BAŞLAMAQ DƏLİLİK İDİ"

● **Bəs fortepiano üzrə beynəlxalq müsabiqələr laureatı, istedadı ilə seçilən pianoçu nə üçün orqan musiqisinə yönəlir?**

● 16 yaşımda İngiltərənin iki şəhərində piano ifaçısı və vokalist kimi xeyriyyə tədbirində iştirak edirdim. İlk dəfə orqanla bu konsertdə tanış oldum. Mənə maraqlı gəldi, çünki həm pianoya oxşayırdı, həm də deyildi. Orqanın arxasına keçdim və toxundum. Onun səsi mənə çox təsir etmişdi. Həmin hadisədən bir il keçmişdi. Konservatoriyaya sənəd verməli idim və cəmi iki ayım qalmışdı. Yuxuda orqan ifa etdiyimi gördüm. Oyanan kimi qərarımı qətiləşdirdim ki, mən orqan təhsili alacağam. Bu qərar müəllimlərimdə şok effekti yaratdı. Çünki orqan Azərbaycanda məşhur və prestijli musiqi aləti sayılmır. Adətən, digər ixtisaslara balı çatmayanlar bu ixtisasa müraciət edirdi. Yolumdan döndərməyə çalışdılar, amma dedim ki, yox, mən bunu hiss edirəm və o musiqi məni çağırır. Sənədlərimi verəndə belə qəbul etmək istəmirdilər, çünki məni tanıyırdılar. Beynəlxalq müsabiqələr laureatı, piano sahəsində kifayət qədər uğurları olan insanın ölkədə çox da tanınmayan sahəni seçməsi, pianonu kənara qoyub sıfırdan başlaması dəlilik idi. Mən bunu etdim, peşman olmadım. Orqanın səsi tamamilə fərqli idi və məni çox həyəcanlandırırdı. Daxili səsimi, musiqi ifamda yorumlarımı, emosiyalarımı ifadə edən yeganə alət idi. Pianodan o effekti, istədiyim hayqırışı ala bilmirdim. Orqanda onu tapdığım üçün sevinirdim.

● **Maraqlıdır, ananızın reaksiyası necə oldu? Axı piano həm də onun arzusu idi...**

● Təbii ki, anam da təəccübləndi və istəmirdi. Amma anama dedim ki, əgər orqan təhsili almayacağamsa, ümumiyyətlə, musiqidən kənarlaşacağam. Çünki məktəbdə də dərslərimi yaxşı oxuyur, olimpiadalarda iştirak edir, qalib olurdum. Peşəmi rahatlıqla dəyişə bilərdim. Müəllimlərim də məni dəstəklədiyi üçün əslində, təhdidim real idi. Anam məni dəstəkləməyə məcbur oldu. (Gülür - A.Ə.)

### "ÖZÜMÜ KOSMİK RAKETƏ OTURAN KOSMONAVT KİMİ HİSS EDİRƏM"

● **Bəs Norveçlə yolunuz necə kəsişdi?**

● İkinci kursda oxuyurdum. Bakı Musiqi Akademiyasının Norveçin Bergen şəhərində Grieg Akademiyası ilə əlaqələri var idi. Tələbələri bir illik oxumağa göndərirdilər. Həmin elana müraciət etdim və bir illik Norveçə yollandım. Lakin bir ildən sonra ölkəyə qayıtmalı, təhsilimi Bakı Musiqi Akademiyasında davam etdirməli idim. Amma mən təhsilimə Norveçdə davam etmək istəyirdim. Norveç Musiqi Akademiyasına müraciət etmək üçün isə sənədlərimi Bakıdakı Akademiyadan götürməli idim. Mənə dedilər ki, əgər sənədlərini götürsən, təhsilindən imtina edirsən. Bu addımın geri dönüşü yox idi. Təbii ki, Norveçə də qəbul olmağım sual altında idi. Amma risk etdim və qəbul oldum. Osloda Norveç Musiqi Akademiyasında sıfırdan oxumağa başladım. İki il Azərbaycanda təhsil alıb, bir il Norveçdə kurs keçsəm də, məni birinci kursdan qəbul etdilər. Çünki Azərbaycanda ancaq orqan ifaçılığını öyrənirdim, burada isə mütləq bununla yanaşı kilsə təhsili almalı, kilsənin bütün rituallarını və qaydalarını öyrənməlisən. Bunu dərindən öyrənmək üçün həm bakalavr oxudum, həm əlavə kurslara getdim, hətta Norveçdə magistraturaya da qəbul oldum. Magistratura illəri pandemiyaya düşdüyü üçün ürəyimcə olmadı. London Kral Musiqi Kollecinə baş vurdum. Üstəlik, orada oxumaq üçün tam təqaüd alan üç tələbdən biri və yeganə xarici idim.



> "Yeni dünyalar kəşf etmək mənim uşaqlıq arzumdur. Uşaqlıqda kosmonavt olmaq istəmişəm, anam mümkünsüz olduğunu düşünüb məni yola verərdi."

● **Etdiyiniz risklər sizi sıfırdan başlamağa məcbur edib. İndi necə düşünürsünüz, orqan üçün dəyərdimi?**

● Bu risklər məni heç vaxt qorxutmayıb, əksinə, həyəcan verib. Yeni dünyalar kəşf etmək mənim uşaqlıq arzumdur. Uşaqlıqda kosmonavt olmaq istəmişəm, anam mümkünsüz olduğunu düşünüb məni yola verərdi. Amma həqiqətən fikirlərimdə həmişə uçmaq, yerdən uzaqlaşmaq istəmişəm. Məni orqana çəkən də məhz bu idi. Çünki o səs məni real dünyadan ayırıb, istədiyim o kosmosa fiziki olmasa da, ruhani olaraq apara bildi. Dedim ki, əgər bu alət bunu edə bilirsə, mən bu alətlə çox şeylər edə bilərəm. Orqan mənim üçün yeni bir ümid idi. Həm özüm uçurdum, həm də insanları musiqi ilə uçura bilirdim. Həqiqətən də, orqanda o qədər düymələr var ki, onun arxasına əyləşəndə özümü kosmik raketə oturan kosmonavt kimi hiss edirəm. Geriyə dönüb baxanda, "dəyərdi" deyirəm.

### "MƏNİM ÜÇÜN ÖYRƏNMƏYİN LİMİTİ YOXDUR"

● **"İncəsənətdə istedadın varsa, təhsilin olmasa da olar" deyənlər var. Siz istedadınız və uğurlarınızla kifayətlənməyib musiqi sahəsində ən reytinqli universitetdə təhsil almısınız. Təhsil sizin üçün nə ifadə edir?**

● Təhsilin əhəmiyyətini dərk etdiyim üçün 12 ilimi peşəmi öyrənməyə həsr etmişəm. Məsələn, təhsilə bu qədər illər xərcləyib həkim də ola bilərdim. Düzdür, yaşıdlarım var ki, bakalavrı bitirib hazırda işləyirlər. Mənim üçün isə öyrənməyin limiti yoxdur. Bu gün də öyrənirəm, Norveç, Fransa və Almaniyada əlavə müəllim yanına gedirəm. Həmişə istəyirəm ki, yanımda müəllimim, mentorum olsun. Bilim ki, doğru yoldayam. Nə risk etməkdən qorxuram, nə də işsizlikdən. Ən çox qorxduğum nüans doğru insanla rastlaşmamaq, doğru insanın yanında olmamaqdır. İndiyə qədər də yaxşı insanlar və müəllimlərdən dərs almışam. Çətin təcrübələrim də olub. Amma çətinliklərin də mənə qatdıqları var. İncəsənətdə usta və çıraq münasibətləri mütləq olmalıdır.




## "CƏSARƏTİN VARSA, HARA DESƏN, GEDƏ BİLƏRSƏN"

● **Kasıblıqla zirvəyə qalxmaq çox insana inandırıcı gəlmir. Bu yoldan keçən xanım kimi siz necə düşünürsünüz?**

● İnsanda birinci istək və arzu, sonra onun arxasınca getməyə cəsarət lazımdır. O cəsarətin varsa, hara desən, gedə bilərsən. Təbii ki, bu yolda əziyyət qaçılmazdır, amma nail olduqların bütün əziyyətini unutdurur. Ən böyük dualarımdan biri qarşıma yaxşı insanların çıxması olub. Çünki onların sayəsində həyatın dəyişir. Məsələn, mən ilk dəfə Norveçdə Grieg Akademiyasına qəbul olanda, lazımi balı toplamışdım, amma pulum yox idi. Mənə dedilər ki, hesabında pul göstərə bilərsənsə, gəlib oxuya bilərsən. Bu dövr mənim üçün çox ağır idi. Çünki o pulu göstərməyim mümkünsüz idi. Həyatımda gözləmədiyim anda qapımı açan bir hadisə oldu. Televiziya layihələrindən birində qalib olmuşdum və həmin layihə ilə bağlı qala gecəsi keçirilirdi. Gecədə mötəbər insanlar iştirak edirdi. Onlardan biri də keçmiş gənclər və idman naziri Azad Rəhimov idi. Həmin vaxt elə bil ki, hansısa qüvvə məni onun yanına apardı və özümdə cəsarət toplayıb nazirə özüm haqqında məlumat verdim. Sonra Norveçdə Grieg Akademiyasına qəbul olsam da, hesabımda pul olmadığı üçün gedə bilmədiyimi dedim. O vaxt 15 min manat hesabda olmalı idi. Azad müəllimin şəxsi hesabından bu ödənişi etdilər və mənim Norveç macəram başladı. O pul mənə Norveçdə bir il bəs etdi.

● **Bəs kilsə ilə yolunuz necə kəsişdi?**

● Kilsə musiqisini oxuyurdum və bilirdim ki, orqan kilsədə ifa olunur. Təhsil müddətində müxtəlif kilsələrdə işləyir, müəyyən məkanlarda əvəzedici olurdum. Norveçdə tək olduğum və sıfırdan başladığım üçün yolumun xəritəsini əvvəlcədən cızmışdım. Çalışırdım ki, təhsilimi bitirdikdən sonra daimi işimi qazanım. Hazırda Tonsberqdə böyük kilsədə işləyirəm.

● **Kilsədə iş prosesi necədir? İlk vaxtlar sizi təəccübləndirən hadisəni bizimlə bölüşə bilərsinizmi?**

● Kilsədə həmişə monotonluq olur. Çalışıram ki, ifamla bir az rəngarənglik qatım. Mənə qəribə gələn hadisələrdən biri o idi ki, burada insan çox iş bacarırsa, ona "kartof insan" deyirlər. Sonradan anladım ki, kartof çox yeməkdə istifadə olunduğu üçün belə adlandırılır. Kilsə musiqiçilərinə də "kartof musiqiçi" deyirlər. Çünki digər musiqi ifaçıları bir alətin bakalavr təhsilini alırlar və onu ifa etməyi öyrənirlər. Nə oxuyurlarsa, o alət ətrafında olur. Kilsə musiqində isə himnologiyanı, xor, dirijorluq, bəstəkarlıq, konsert təşkili, xalq musiqisi, musiqi idarəçiliyi, səsyazma və improvizasiya etməyi öyrənirik.

● **"YouTube" kanalınızda da milli musiqilərimizi ifa edirsiniz. Maraqlıdır, orqan alətində Azərbaycan bəstəkarlarının əsərləri, həmçinin muğamlarımızı ifa edirsinizmi?**

● Bəli, edirəm. Çünki bilirəm ki, burada Azərbaycanı təmsil edən simayam. Bu, böyük məsuliyyətdir. Nə etmişəmsə özüm olaraq yox, Azərbaycan olaraq etmişəm. Hər konsertimdə bir əsər belə olsa, Azərbaycan bəstəkarlarından ifa edirəm. Azərbaycan muğamının orqana necə yaraşdığını göstərmək şansım olub və norveçlilər də çox bəyəniblər.